UOT 339.9
JEL F10,Z32

YILDIZSAFER M.A., dissertant
Azərbaycan Turizm və Menecment Universiteti

BEYNƏXALQ TİCARƏTİN TURİZM SAHƏSİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNDƏ ROLU

Xülasə

Tədqiqatın məqsədi -Türkiyədə turizm sahəsinin səmərəliliyin yüksəldilməsində beynəxalq iqtisadi əməkdaşlığın rolunun təhlili və qiymətləndirilməsi.
Tədqiqatın metodologiyası-Təhlil və qiymətləndirmə.
Tədqiqatın nəticələri-Türkiyədə turizm sahəsinin səmərəliliyin yüksəldilməsində beynəxalq iqtisadiəməkdaşlığın roluturizm xidmətindən əldə edilən gəlirlə Eviews proqram paketinə əsasən ölkədəki infilyasiya səviyyəsi, turistlərin sayı, ixracın və idxalın həcmini ifadə edən əlaqə tənliyi və dinamik dəyişikliyin qrafiki qurulmuş və qiymətləndirilmişdir.

Aşar sözlər: İxrac, idxal, gəlir, proqram paketi, beynəlxalq əməkdaşlıq, səmərəlilik, turizm, iqtisadi artım, infilyasiya, istehsal.

GİRİŞ

Beynəlxalq əmək bölgüsünün xüsusiyyətlərinə, Türkiyənın geoiqtisadi vəziyyətinə, mövcud resurs və elmi-texniki potensiala uyğun olaraq, xarici iqtisadi fəaliyyətin formalaşmaqda olan mexanizmi xarici iqtisadi strategiyanın əsas məqsədinin reallaşmasını təmin edir. Bu məqsədlə xarici iqtisadi fəaliyyətə qoyulan əsas tələblər bir-biri ilə əlaqədə olan aşağıdakı üç əsas vəzifənin yerinə yetirilməsini nəzərdə tutur:
1) dünya praktikasında qəbul edilmiş prinsiplər, normalar və iqtisadi mexanizmlərdən çıxış edən inkişaf edən bazar sisteminin formalaşdırılması;
2) milli təsərrüfatın yenidən qurulmasıüçün dünya iqtisadi sisteminin imkanlarından istifadə edilməsi;
3) xarici iqtisadi sferanın dinamik artım amilinə çevrilməsinin təmin edilməsi.


Xarici iqtisadi siyasətə olan bu tələblər onu göstərir ki, xarici iqtisadi siyasət, digər ölkələrlə iqtisadi münaisbətlər sahəsində dövlətin həyata keçirdiyi razılaşdırılmış tədbirlərin məcmusu nəzərdə tutulur və bu siyasət xarici ticarəti, beynəlxalq elmi-texniki və mədəni əlaqələri, birgə proqramların həyata keçirilməsini, xarici kapitalın cəlb edilməsini əhatə edir. Əsasən xarici iqtisadi siyasətinin həyata keçirilməsində istifadə edilən alətlər kimi gömrük tariflərini və rüsumları, ixrac-idxal məhdudiyyətləri, valyuta mübadilə məzənnələri, valyuta nəzarəti mühüm əhəmiyyət kəsb edir..

Türkiyə Respublikasının 2001-2017-ci illər üzrə xarici ticarət, ixal, ixrac və turizmdən əldə olunan gəlirlərinin dinamikası

Xarici ticarət əlaqələri sferasında ictimai əmək bölgüsü kimi ayrı-ayrı ölkələrin qarşılıqlı əlaqələrinin və qarşılıqlı asılılıqlarının, təsərrüfat həyatının beynəlmiləlləşməsinin və qloballaşmasının əsasında dayanan beynəlxalq əmək bölgüsüçıxış edir. Beynəlxalq əmək bölgüsü beynəlxalq iqtisadi münasibətlər kimi təbii (coğrafi, ətraf mühit, demoqrafik və s.) və əldə edilmiş (istehsal, texnoloji, rəqabət və s.) amillərdən, həmçinin siyasi, sosial və digər şərtlərdən asılı olur. Beynəlxalq iqtisadi münasibətlərin sonrakı inkişafı perspektivləri, dünya bazarının həcminin artması imkanları beynəlxalq əmək bölgüsünün inkişafı dərəcəsi ilə, onunu daha yüksək tiplərinə keçidlə müəyyən edilir. Xarici ticarət siyasətinin mühüm istiqamətlərindən biri ixracın stimullaşdırılmasısiyasətidir. Bu istiqamətdə Türkiyə Respubliasında aparılmış iqtisadi islahatlar xarici ticarətin dinamikasında müsbət rol oynamışdır. Qeyd etmək lazımdr ki, xarici ticarət dövriyyəsinin artması iqtisadiyyatın digər sektorları ilə bərabər xidmət sektorunun, o cümlədən turizm xidmətlərinidən əldə olunan gəlirin də artmasına müsbət təsir göstərmişdir. Lakin, son

dövrlərdə dünya ölkələrini bürüyən maliyyə böhranları türkiyənin xarici ticarətinə də mənfi təsir etmişdir. Aşagıdakı cədvəl məlumatlarından bunları daha aydın görmək olar.

Türkiyə Respublikasının 2001-2017-ci illər üzrə xarici ticarət, ixal, ixrac və turizmdən əldə olunan gəlirlərinin dinamikası



Mənbə: (8) məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

2001-2017-ci illər üzrə xarici ticarət, ixal, ixrac və turizmdən əldə olunan gəlirlərinin dinamikası qrafikdən göründüyü kimi2001-2008-ci illər üzrə xarici ticarət dövriyyəsinin həcmində artım müşahidə edilmiş və 2008-ci ildə 2001-ci illə müqayisədə xarici ticarət dövriyyəsi 4,6 dəfə,o cümlədən ixrac 4,2 dəfə, idxal 4,9 dəfə artmışdır [7]. 2009-cu ildə isə iqtisadi böhran səbəbindən xarici ticarət dövriyyəsinin həcmi 2009-cü ildə 57,9% azalmışdır. 2011-2013-cü illərdə arrım müşahidə edilsə də sonrakı illərdə (2013-2015) dünyanı bürüyən qlobal maliyyə böhranları Türkiyədə xarici ticarətin həcmi azalmışdır. Bu azalmaya əsasən 2015-ci ildə Rusiya ilə siyasi münasibətlərin pisləşməsi dətəsir etmişdir. Belə ki, həmin dövrdə turizm xidmətlərindən əldə olunan gəlir ölkəyə gələn turistlərin sayının azalması hesabına 2016-cı ildə 2015-ci illə müaqyisədə 25% azalmışdır[8]. 2017-ci ildə isə Türkiyə Respublikasının apadığı uğurlu siyasi-iqtisadi əməliyyatlar hesabına xarici ticarət dövriyyəsində artım müşahidə edilməlklə ölkəə gələn turistlərin sayı artaraq turizm xidmətlərindən əldə olunan gəlirin artmasına zəmin yaratmışdır.

Qeyd etmək lazımdır ki, xidmət sektoru üzrə beynəlxalq ticarətdə turizm xidmətlərinin səmərəliliyinin artırılması bu xidmətlərdən əldə edilən gəlirin artmasına təsir edərək iqtisadi artımı surətləndirir. Turizm xidmətlərindən əldə edilən gəlirə əsasən bir çox amillər, o cümlədən, turizm sektorunda istifadəyə verilmiş əsas fondlar, investisiyaların həcmi, əsas kapitala yönəldilmiş investisiyalar, infilyasiya səviyyəsi, ixrac və idxalın həcmi, turizm xidmətlərinin daxili səmərəlilik indeksi, turizdə loqistikanın səmərəlilik indeksi və s. təşir edir. Turizm xidmətlərindən əldə edilən gəlirə ölkədəki infilyasiya səviyyəsi, turistlərin sayı, xarici ticarət, o cümlədən İxrac və İdxal amillərinin təsirinin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə ilə aşağıdakı cədvəl məlumatlarından istifadə edək.

Cədvəl 1 məlumatları üzrə 2000-2017-cı illər üzrə Türkiyə Respublikasında turizm xidmətindən əldə olunan gəlirlərin səviyyəsinə təsir edən amillər arasındakı asılılığı reqressiya təhlilinin aparılması üçün EViews riyazi proqram paketlərindən istifadə edərək əvvəlcə göstəricilərin, yəni ölkədəki infilyasiya səviyyəsinin, İxracın həcminin, idxalın, turistlərin sayını və Y amili üzrə turizm xidmətlərindən əldə edilən gəlirin dəyişmə nəticələrini müəyyən edək. Cədvəl 1 məlumatları üzrə 2000-2017-cı illər üzrə Türkiyə Respublikasında turizm xidmətindən əldə olunan gəlirlərin səviyyəsinə təsir edən amillər arasındakı asılılığı reqressiya analizinin aparılması üçün hazır riyazi proqram paketlərindən biri olan Eviews proqram paketindən istifadə edərək əsasən aşağıdakı nəticəni alarıq.

Cədvəl 1

Azərbaycan Respublikasında nəqliyyat xidmətindən əldə olunan gəlir və ona təsir edən amillərin dinamikası

İllər	İnfilyasiya	İxrac, mlrd. ABŞ Dolları ilə	İdxal, mlrd. ABŞ Dolları ilə	Turizmdən əldə olunan gəlir, mlrd. ABŞ Dolları ilə	Turistlərin sayı, mln nəfər
1999	64,9	26,59	40,67		
2000	55,0	27,77	54,50		
2001	54,2	31,33	41,40	13,45	10,45
2002	45,1	36,06	51,55	15,21	12,42
2003	25,3	47,25	69,34	16,30	13,85
2004	8,6	63,17	97,54	20,26	17,07
2005	8,2	73,48	116,77	24,12	20,32
2006	9,6	85,53	139,58	23,15	18,59
2007	8,8	107,27	170,06	27,21	20,94
2008	10,4	132,03	201,96	30,98	25.41
2009	6,3	102,14	140,93	32,01	25,06
2010	8,6	113,88	185,54	33,03	24,93
2011	6,5	134,91	240,84	36,15	28,11
2012	8,9	152,46	236,54	36,46	29,01
2013	7,5	151,80	251,66	39,23	32,31
2014	8,9	157,61	242,18	41,41	34,31
2015	7,7	143,84	207,23	41,62	31,46
2016	7,8	142,53	198,62	31,36	22,11
2017	11,92	156,99	233,80	38,62	26,28

Mənbə. (8) və (9) materiallarına və müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 2

Dependent Variable: Y
Method: Least Squares
Date: 10/20/19 Time: 05:28
Sample (adjusted): 2001 2017
Included observations: 17 after adjustments

Variable	Coefficient	Std. Error	t-Statistic	Prob.
X4	0.866436	0.152416	5.684695	0.0001
X3	-0.032155	0.030936	-1.039394	0.3191
X2	0.127623	0.047509	2.686298	0.0198
X1	0.012255	0.039491	0.310324	0.7616
C	0.847147	2.267096	0.373671	0.7152

R-squared	0.980268	Mean dependent var	29.44529
Adjusted R-squared	0.973690	S.D. dependent var	9.285571
S.E. of regression	1.506140	Akaike info criterion	3.896906
Sum squared resid	27.22151	Schwarz criterion	4.141969
Log likelihood	-28.12370	Hannan-Quinn criter.	3.921266
F-statistic	149.0359	Durbin-Watson stat	1.883539
Prob(F-statistic)	0.000000		

Mənbə: Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Eviews tətbiqi proqram paketinə əsasən alınmış nəticəyə əsasən reqressiya tənliyi aşağıdakı kimi olacaqdır:

Y = 0.866435935509*X4 - 0.0321548204963*X3 + 0.127622589455*X2 + 0.0122551314119*X1 + 0.8471469549 (1)

(1) modelinə daxil olan sərbəst dəyişənlərlə asılı dəyişən arasındakı korrelyasiya asılılığını təhlil edərək, zəif korrelyasiya asılılığı olan amilləri tədqiqat obyektindən çıxarmaqla yeni reqresiya tənliyini quraq. Bu məqsədlə cədvə 2 məlumatlarına əsasənMS Excel tətbiqi proqram paketində korrelyasiya matrisini qursaq, aşağıdakı cədvəli alarıq:

Cədvəl 3

Korrelyasiya matrisi

	Y	*X1*	*X2*	*X3*	*X4*
Y	1				
X1	-0,70849	1			
X2	0,962073	-0,71164	1		
X3	0,9506	-0,72307	0,983197	1	
X4	0,978081	-0,719	0,927593	0,93217	1

Mənbə. MS Excel tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.


Cədvəldən göründüyü kimi Y və X1 dəyişənləri arasında Çedok şkalasına əsasən (0,7-0,9) yüksək əks əlaqə vardır ($R_{yx_1} = 0{,}708,$). Y və X2, X3, X4 dəyişənləri arasında isə olduqca yüksək birbaşa əlaqə vardır($R_{yx_2} = 0{,}96,\ R_{yx_3} = 0{,}95,\ R_{yx_4} = 0{,}978$).

Y və X dəyişənləri arasında zəif korrelyasiya əlaqəsi olmadığından X dəyişənlərinin heç bir tədqiqat obyektindən çıxarılmayacaqdır.

Təyin edilmiş bu əlaqə tənliyinə əsasən, belə nəticəyə gəlmək olar ki, ölkədəki infilyasiya səviyyəsinin həcmini ifadə edən (X1) amilinin bir vahid artması turizm xidmətlərindən əldə edilən gəlirin 0.01225 vahid artmasına, ixracın həcminin (X2) bir vahid artması turizm xidmətindən ümumi gəlirin 0.1276 vahid artmasına, idxalının həcminin (X3) bir vahid artması turizm xidmətlərindən əldə edilən gəlirin 0.032 vahid azalmasına, turistlərin sayınının (X4) bir vahid artması turizm xidmətlərindən əldə edilən gəlirin 0.866 vahid artmasına səbəb olur. Göründüyü kimi turizm xidmətindən əldə edilən ümumi gəlirin artmasına ölkəyə gələn turistlərin sayının artması daha aktiv təsir edən amillərdən biridir. Türkiyədə 2001-2017-ci illər üzrə turizm xidmətindən əldə edilən gəlirlə Eviews proqram paketinə əsasən ölkədəki infilyasiya səviyyəsi, turistlərin sayı, İxracın və idxalın həcmini ifadə edən dinamik dəyişikliyin qrafiki aşağıdakı kimi alınmışdır.

Qrafik 1

Türkiyə Respublikasında 2001-2017-ci illər üzrə turizm xidmətindən əldə edilən ölkədəki infilyasiya səviyyəsi, turistlərin sayı, ixracın və idxalın həcminin dinamik dəyişikliyi



Mənbə. Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Qeyd etmək lazımdır ki, tədqiq olunan göstəricilər arasındakı əlaqənin sıxlığını qiymətləndirmək üçün cüt korrelyasiyanın xətti əmsalı hesablanır. Bu əmsal aşağıdakı düstura əsasən müəyyən edilir. [2].

$$r_{xy} = \frac{\sum(y - \bar{y})(x - \bar{x})}{\sqrt{\sum(y - \bar{y})^2 \sum(x - \bar{x})^2}} \qquad (1)$$

Əmsalın qiyməti [-1; 1] aralığında dəyişir. r_{xy}-əmsalının vahidə yaxın olması bu göstəricilər

arasında sıx korrelyasiya asllılığının olduğunun göstərir. $r_{xy} = 0$ olması isə xətti asılılığın olmadığını göstərir. Əmsalın sıfra bərabər olması tədqiqat obyektləri arasında xətti asılılığın olmamasına baxmayaraq, qeyri-xətti asılılıq da ola bilər. Göstəricilər arasındakı asılılığ dərəcəsi əsasən Çeddok şkalasına görə müəyyən edilir.


Qeyd etmək lazımdır ki, cüt korrelyasiyanın xətti əmsalı eyni zamanda səbəb və nəticə göstəricilərinin istiqamətini də müəyyən edir. Belə ki, əgər $r_{xy} > 0$ olarsa, göstəricilər arasında düz əlaqə vardır. Yəni, səbəb amilinin(x) artması ilə nəticə göstəricisinin (y) qiyməti də artır. Əgər, $r_{xy} < 0$ olarsa, bu halda göstəricilər arasında əks əlaqə mövcuddur. Yəni, səbəb amilinin(x) artması ilə nəticə göstəricisinin (y) qiyməti azalır. Cüt korrelyasiyanın xətti əmsalını təyin etmək üçün KORREL statistik funksiyasından istifadə edilir. Bu asılılıqda determinasiya əmsalı aparılmış hesabata əsasən 0,98-ə bərabərdir.

Çoxluq korrelyasiya əmsalının R=0,9737 olması turizm xidmətindən ələd olunan ümumi gəliri ifadə edən Y asılı dəyişəni ilə modelə daxil olan amilləri ifadə edən sərbəst dəyişənlər (X1, X2, X3 və X4) arasında əlaqənin olduqca yüksək olmasını göstərir. Determinasiya əmsalının R^2=0,98 olması o deməkdir ki, müvafiq reqressiya tənliyi 98,0% dispersiya nəticə göstəriciləri ilə, 2,0%-i isə digər amillərin təsiri ilə izah edilir. Determinasiya əmsalının yüksək olması reqresiya tənliyinin ilkin verilənləri daha yaxşı ifadə etməsi və nəticə amilinin daha çox hissəsinin (98,0%) modelə daxil olan amillər hesabına izah edilməsi ilə əlaqədar olduğunu göstərir.

Qurulmuş (2) modelinin reqresiya tənliyi ilə Eviews tətbiqi proqram paketinə əsasən alınan (Fitted) və faktiki (Actual) qiymətlərinin, habelə onların arasındakı qalıqların (Residual) dinamikası aşağıdakı qrafikdə verilmişdir [4].

Qrafik 2.

Reqresiya tənliyi ilə alınan və faktiki qiymətlərin və onların arasındakı qalıqların dinamikası



Mənbə. Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Qurulmuş modelin adekvatlığının yoxlanıması mühüm əhəmiyyət kəsb eydiyindən, həmin adekvatlığı ənəvi metodlardan biri kimi F-Fişer kriteriyasının köməkliyi ilə müəyyən etmək olar . Bütünlükdə çoxluq reqressiya tənliyini ifadə edən (2) modelinin statistik əhəmiyyətliliyini yoxlamaq məqsədlə F- Fişer kriteriyası, $F_{cədvəl}(\mathrm{a; m; n - m - 1})$ qiyməti ilə müqayisə edilməlidir [3]. Eviews proqram paketinin nəticəsini əks etdirən cədvəl 2 məlumatlarına əsasən,

F- statistic (Fişer kriteriyası) = 27.55403


EXCEL-də F cədvəl qiymətini $F_{cədvəl}(\mathrm{a; m; n - m - 1}) = \mathrm{Fраспобр}$ düsturunun köməkliyi ilə təyin etsək,

$F_{cədvəl}(\mathrm{a; m; n - m - 1}) = \mathrm{Fраспобр}(0{,}05; 4; 14) = 3{,}11$

F- Fişer kriteriyası, $F_{cədvəl}(\mathrm{a; m; n - m - 1})$ qiyməti ilə müqayisə edildikdə görünür ki, F-Fişer kriteriyası (149,03>3,11). Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətli xarakter daşıyır [1]. Bu isə qurulmuş (2) modelin adekvatlığı deməkdir.

Eviews tətbiqi proqram paketinə əsasən alınmış reqresiya tənliyi ilə tapılmış turizm xidmətindən əldə olunan gəlirin illər üzrə qiymətləri və standart səhvləri, habelə tənliyin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra xarakteristikaları aşağıdakı qrafikdə göstərilmişdir.

Qrafik 5



Forecast: YF	
Actual: Y	
Forecast sample: 2000 2017	
Included observations: 18	
Root Mean Squared Error	405.7225
Mean Absolute Error	348.9665
Mean Abs. Percent Error	36.53840
Theil Inequality Coefficient	0.071019
Bias Proportion	0.000000
Variance Proportion	0.016103
Covariance Proportion	0.983897

Mənbə. Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Qeyd etmək lazımdır ki, qrafikdən istifadə edərək Türkiyədə turizm xidmətlərindən əldə olunan gəlirin proqnoz qiymətlərini də müəyyən etmək olar.

Türkiyə Respublikasında turizm xidmətlərindən əldə edilən gəlirin dəyişməsinə ölkədəki infilyasiya səviyyəsinin, ixracın həcminin, idxalın və turistlərin sayının təsirinin elastiklik əmsalı ilə qiymətləndirilməsi də mühüm əhəmiyyət kəsb edir. Tədqiqat nəticəsində yuxarıda **Y = 0.866435935509*X4 - 0.0321548204963*X3 + 0.127622589455*X2 + 0.0122551314119*X1 + 0.8471469549 (2)** xətti reqresiya tənliyi üçün sərbəst dəyişənin 1% dəyişməsi nəticəsində asılı dəyişənin neçə faiz dəyişməsini ifadə edən elastiklik əmsalını hesablamaqla səbəb amililləri hesabına nəticə amilinin neçə faiz dəyişəcəyini müəyyən etmək olar. Bu əmsal aşağıdakı düstura əsasən hesablanır [4].

$$E = \frac{\propto_i \bar{x}}{\bar{y}} (3)$$

Burada, α_i yuxarıda göstərilən əlaqə tənliyinin əmsallarıdır. $\bar{x}$- tədqiq olunan dövrlər üzrə ölkədəki infilyasiya səviyyəsinin, ixracın həcminin, idxalın və turistlərin sayının ortası , $\bar{y}$- tədqiq olunan dövrlər üzrə Türkiyə Respublikasında turizm xidmətlərindən əldə edilən gəlirin hesabı ortasıdır. Həmin göstəricilərə əsasən hesablanmış elastiklik əmsalları qurulmuş model üzrə aşağıdakı kimi olacaqdır.

E_4=0,635621, E_3=-0,167867, E_2=0,430375, E_1=0,007978

Alınmış hesabat nəticində belə nəticəyə gəlmək olar ki ölkədəki infilyasiya səviyyəsinin 1% artması Türkiyə Respublikasında turizm xidmətlərindən əldə edilən gəlirin 0,00798% artması ilə, ixracın həcminin 1% artması Türkiyə Respublikasında turizm xidmətlərindən əldə edilən gəlirin 0,4304% artması ilə, idxalın həcminin 1% artması Türkiyə Respublikasında turizm xidmətlərindən əldə edilən gəlirin 0,1679% azalması ilə, turistlərin sayının 1% artması isə Türkiyə Respublikasında turizm xidmətlərindən əldə edilən gəlirin 0,636% artması ilə nəticələnmişdir.

NƏTİCƏ

Aparılmış tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Türkiyə Respublikasında Türkiyə Respublikasında turizm xidmətlərindən əldə edilən gəlirlə, infilyasiya səviyyəsi ilə, turistlərin sayı ilə, ixracın və idxalın həcmi arasında $\mathbf{Y = 0.866435935509 * X4 - 0.0321548204963 * X3 + 0.127622589455 * X2 + 0.0122551314119 * X1 + 0.8471469549}$ reqresiya tənliyi ilə ifadə olunan xətti asılıq vardır. Bu asılılıqda korreelyasiya əmsalının vahidə yaxın olması (0,98) göstərir ki, bu asılılıq funksional asılılığa daha çox yaxındır. Eviews tətbiqi proqram paketinə əsasən alınmış ,**Y = 3716.144*X6 + 0.136*X5 - 0.021*X4 + 0.408*X2 - 0.334*X1 - 7347.468** reqressiya tənliyi Türkiyə Respublikasında turizm xidmətindən əldə olunan gəlirin dəyişməsinin 98%-nin ona təsir edən amillər hesabına baş verməsi ilə izah edilir. Bu modelə əsasən belə nəticəyə gəlmək olar ki, turizm xidmətindən əldə edilən gəlirin artması turizm sektorunda turistlərin sayının artması və ölkə üzrə ixracın həcminin artmasından daha çox asılıdır. Ona görə də ticarət dövriyyəsinin həcmində ixrac və turist sayının yüksəldilməsinə təsir edən amillərin optimallaşdırılması turizm sektorunda gəlirin artmasına təsir edərək iqtisadi artımın yüksəlməsinə səbəb olacaqdır. Bu isə onu deməyə əsas verir ki, turizmin bütün sahələr üzrə fəaliyyətdə olan turizm müəssisələrinin, otellərin, mehmanxanaların, istirahət mərkəzlərinin və s. funksiyaları beynəlxalq standartlara

uyğunlaşdırılmalı, turizm sahələri üzrə logistika sisteminin səmərəliliyinin artırılması üçün xarici ölkələrlə viza rejimləri sadələşdirilməli, logistika sistemi inkişaf etdirilməli, logistikanın komponentliyi artırılmalı, ölkəyə investisiya axınlarının cəlb edilməsinin yüksəldilməsi istiqamətində beynəlxalq standarta uyğun turizm-logistika xidmətləri yaradılmalı və turistlərin ölkəyə giriş-çıxışına sərf edilən zamanın minimumlaşdırılması məqsədi ilə bütün əməliyyatlar sadələşdirilməlidir. Həmçinin, Türkiyədə turizmin bütün növlərinin logistikası üzrə turizm qovşağının vahid idarə edilməsi sistemi yaradılmalıdır. Bu sistem turizm üzrə logistikanın səmərəlilik indeksinin yüksəldilməsinə və Türkiyə Respublikasının turizmin bütün növləri üzrə dünya ölkələri arasında reytinqinin müəyyən edilməsinə şərait yaradacaqdır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Musayev A.F. Qəhrəmanov A.T. İqtisadiyyatda riyazi modelləşdirmə və proqramlaşdırma, Bakı: Sabah, 1999, 452 s.;
2. Həsənli Y.H., Həsənov R.T., İqtisadi tədqiqatlarda riyazi üsulların tətbiqi, Bakı, 2002;
3. Həsənov Ə., Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Bakı, "Azərbaycan" nəşriyyatı, 2005;
4.Yadigarov T.A. "Əməliyyatlar tədqiqi və ekonometrik məsələlərin MS Excel və EViews proqram paketində həlli: nəzəriyyə və praktika". Bakı, «Avropa» nəşriyyatı, 2019, 355 s.;
5. World Travel and Tourism Council;
6. Azərbaycan Dovlət Turizm Agentliyi;
7.Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi;
8.Türkiyə Dövlət Statistika İnstitutu;
9. http://www.stat.gov.az/source/tourism/.

Йлдызсафер М.А., диссертант
Азербайджанский Университет Туризма и Менеджмента

Роль международной торговли в повышении эффективности туризма

Резюме

Цель исследования. Анализ и оценка роли международного экономического сотрудничества в повышении эффективности туризма в Турции.

Методология исследования. Анализ и оценка.

Результаты исследования. Согласно программного пакетв Eviews былооценено повышение эффективности туристического сектора и роль международного экономического сотрудничества Турциипо уровню инфляции, количеству туристов и динамике экспорта и импорта.

Ключевые слова: экспорт, импорт, выручка, пакет программ, международное сотрудничество, эффективность, туризм, экономический рост, инфляция, производство.

Yıdızsafer M.A., dissertant
Azerbaijan University of Tourism and Management

The role of international trade in improving tourism efficiency

Summary

Purpose of the study. Analysis and assessment of the role of international economic cooperation in improving the efficiency of tourism in Turkey.

Research methodology. Analysis and evaluation.

The results of the study. According to the Eviews software package, an increase in the efficiency of the tourism sector and the role of Turkey's international economic cooperation in terms of inflation,

Keywords: export, import, revenue, program package, international cooperation, efficiency, tourism, economic growth, inflation, production.